

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 140 (24.027)

*28 iyul 2022-ci il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yeddinci sessiyasında qarşıya qoyulan vəzifələr müəyyənləşdirilib və yarım ilin yekunları müzakirə edilib



2022-ci ilin birinci yarısının yekunları və qarşıda duran vəzifələr mövzusunda Naxçıvan Muxtar Respublikasının Dövlət Sığorta Xidmətində keçirilən iclası publik hüquqi şəxsin direktoru Bəxtiyar Məmmədov açıb. Bildirib ki, 16 iyul 2022-ci il tarixdə altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yeddinci sessiyasında Dövlət Sığorta Xidməti publik hüquqi şəxsi qarşısında bir sıra mühüm vəzifələr qoyulub.

Qeyd olunub ki, Dövlət Sığorta Xidməti tərəfindən 2022-ci ilin birinci yarısında həyat və qeyri-həyat sığortası sinifləri üzrə 5-i icbari, 12-si könüllü olmaqla, 17 sinif üzrə aktiv sığorta yığımı həyata keçirilib, nəticədə, 2022-ci ilin 6 ayı ərzində ötən ilin müvafiq dövrü ilə müqayisədə sığorta haqlarının toplanması üzrə, ümumilikdə, 14 faiz, sığorta müqavilələrinin sayında isə 19 faiz artım olub, həyat sığortası sahəsində 10 faiz, qeyri-həyat sığortası üzrə isə 15 faiz artım müşahidə edilib. Növlər üzrə baxdıqda icbari sığortalarda 14 faiz , könüllü sığortalar üzrə isə 13 faiz artım qeydə alınıb.

Vurğulanıb ki, xidmət tərəfindən aparılan sığorta fəaliyyəti üzrə sığorta haqlarının yığımında ötən ilin müvafiq dövrü ilə müqayisədə daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası üzrə 6 faiz, könüllü sığortalar üzrə fiziki şəxslərə məxsus əmlakın sığortasında 0,43 faiz, fərdi qəza sığortasında 13 faiz, sahibkarlara məxsus əmlakın yanğın və digər əlavə risklərdən sığortasında 11 faiz, girov sığortasında 34 faiz, ipoteka krediti üzrə borcalanın fərdi qəza və əmək qabiliyyətinin itirilməsi riskinin sığortasında 67 faiz, avtomobil nəqliyyatı vasitələrinin tam sığortasında 29 faiz, kənd təsərrüfatı bitkiləri məhsullarının sığortasında 77 faiz, kənd təsərrüfatı məhsullarının sığortasında 12 faiz, kənd təsərrüfatı heyvanlarının sığortasında 0,1 faiz artım olub. Ötən illə müqayisədə səyyar xidmətin əhatə dairəsində 32 faiz, sığorta müqavilələrinin sayında 43 faiz, sığorta haqlarında isə 73 faiz artım qeydə alınıb. Bununla belə xidmət yeniliklərə davam edərək yüklərin sığortası və könüllü tibbi sığorta adlı iki yeni sığorta növü yaratmışdır ki, bu sığorta növləri 2022-ci ilin ikinci yarısında əhalinin istifadəsinə veriləcəkdir.

Həmçinin direktor aqrar sığorta sahəsini xüsusi vurğulayaraq bildirib ki, Ali Məclis Sədrinin Sərəncamına əsasən Aqrar Sığorta Fondunun yaradılması cari dövrdə güzəştli sığorta müqavilələrinin bağlanılmasına təkan verib. Kənd təsərrüfatı heyvanlarının, məhsullarının və bitkilərinin güzəştli şəkildə yazılması yerli əhalinin sığortaya olan marağını daha da artırıb. Belə ki, 2022-ci ilin 6 ayında heyvandarlıq üzrə 203, bitkiçilik üzrə 749 ədəd olmaqla cəmi 952 ədəd güzəştli şəkildə sığorta müqaviləsi bağlanılıb. Direktor diqqətə çatdırıb ki, bu sahə verilən tapşırığa əsasən daim diqqət mərkəzində saxlanılır, aqrar fəaliyyətin daha da böyüdülməsi və inkişaf etdirilməsi yolunda işlər ardıcıl şəkildə davam etdirilir. Vurğulanıb ki, fondun yaradılması və müqavilələrin güzəştli şəkildə bağlanılması sığortaya olan yüksək dəstək və qayğının bariz nümunəsidir.

Sonra məruzə ətrafında çıxışlar olub.

*



Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidmətində keçirilən iclası giriş sözü ilə xidmətin rəisi Vəli Novruzov açaraq bildirib ki, Dövlət Baytarlıq Xidməti 2022-ci ilin birinci yarısını uğurla başa vurub. Belə ki, 17 fevral 2020-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə təsdiq edilmiş "2020-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında baytarlıq təbabətinin inkişafı üzrə Dövlət Proqramı"nın icrası üzrə tədbirlər davam etdirilib, baytarlıq sahəsində həyata keçirilən quruculuq işlərinin davamı olaraq Kəngərli Rayon Baytarlıq Şöbəsinin yeni binası tikilərək istifadəyə verilib, Culfa Rayon Baytarlıq Şöbəsi üçün isə inzibati binanın tikintisinə başlanılıb və hazırda davam etdirilir, bunlardan əlavə Şərur rayonunun Çərçiboğan kənd mərkəzində sahə baytar məntəqəsi üçün yeni otaq istifadəyə verilib.

Qeyd olunub ki, Dövlət Baytarlıq Xidmətində keçirilən müşavirədə Ali Məclisin Sədri baytarlıq təbabətinin inkişafı istiqamətində qarşıya mühüm vəzifələr qoyub, yeni alınmış Akademik Həsən Əliyev adına "Araz" Elm-İstehsalat Birliyi üçün bir ədəd "Çanqan" markalı uyğunlaşdırılmış səyyar aptek avtomobili, iki ədəd "DUK" dezinfeksiya və iki ədəd "Niva" markalı avtomobilin, eyni zamanda laboratoriya avadanlıqlarının təqdimatı həyata keçirilib, aidiyyəti üzrə tapşırıqlar verilib. 20 iyun 2022-ci il tarixdən 2 iyul 2022-ci il tarixədək təcrübəli mütəxəssislər tərəfindən rayon baytarlıq laboratoriyalarının əməkdaşları üçün 10 günlük metodik və praktik təlim keçirilib. Daim diqqət mərkəzində saxlanılan kənd təsərrüfatının əsas sahələrindən biri olan heyvandarlığın inkişaf etdirilməsi məqsədilə cari ilin altı ayı ərzində bank və kredit təşkilatları tərəfindən 7 milyon 9 min 600 manat kredit verilib. Cari ilin altı ayı ərzində profilaktik məqsədlə epizootik tədbirlər davam etdirilib, heyvanlarda və quşlarda xəstəliklərə qarşı peyvəndləmə, obyektlərdə isə profilaktik məqsədlə dezinfeksiya tədbirləri həyata keçirilib. Diqqətə çatdırılıb ki, Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin və onun tabeliyində olan Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun mütəxəssislərindən ibarət nümayəndə heyəti 23-29 yanvar tarixlərdə Naxçıvan Muxtar Respublikasında olub, Dövlət Baytarlıq Xidmətinin əməkdaşları ilə birlikdə epizootoloji monitorinqlərin aparılması üçün muxtar respublikanın 54 kəndi, may ayında isə 31 kəndi əhatə edilməklə təsadüfi seçim üsulu ilə müəyyən olunmuş fermer və ailə təsərrüfatlarında bəslənilən xırdabuynuzlu heyvanlardan qan nümunələri götürülərək seroloji və kliniki monitorinqlər həyata keçirilib, təhlil nəticəsində xırdabuynuzlu heyvanların taunu xəstəliyinin törədicisinə və xəstəliyə şübhəli klinik əlamətləri olan xırdabuynuzlu heyvana rast gəlinməyibdir.

Sonda məruzə ətrafında çıxışlar dinlənilib.

*



Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Agentliyində keçirilən iclası giriş sözü ilə direktor Vüqar Babayev açaraq bildirib ki, Dini Qurumlarla İş üzrə Dövlət Agentliyi Naxçıvan Muxtar Respublikasında dini-mənəvi dəyərlər sahəsində görülən işlər və qarşıda duran vəzifələr barədə müşavirə zamanı Ali Məclis Sədrinin irəli sürdüyü mühüm vəzifə və tapşırıqların icrasına çalışıb. Belə ki, hesabat dövründə dini təyinatlı ədəbiyyatların, əşyaların və dini məzmunlu başqa məlumat materiallarının muxtar respublika ərazisində yayılmasına nəzarətin həyata keçirilməsi diqqətdə saxlanılıb. Belə ki, ekspert rəyi verilməsi üçün müvafiq orqanlardan agentliyə 506 adda 2041 ədəd dini material daxil olub, aparılan araşdırma nəticəsində dövlətçiliyimizə zidd, məzhəb ayrı-seçkiliyi salan və ifrat məzhəbçilik prinsipini təbliğ edən 243 adda 355 ədəd dini materialın muxtar respublika ərazisində yayılmasının qarşısı alınıb.

Vurğulanıb ki, agentlik Naxçıvan Muxtar Respublikası Qazısı yanında Şura ilə birlikdə dinin düzgün təbliğinə xüsusi diqqət yetirilməsi, din xadimlərinin biliklərinin artırılması, həmçinin dini təhsil almağa meyilli olan sakinlər üçün Naxçıvan şəhər Sarvanlar, Şərur, Şahbuz rayon və şəhər məscidlərində qadın və kişilərdən ibarət müvafiq təkmilləşdirmə kursları təşkil edilib. Yarım il ərzində 73 nəfər təkmilləşdirmə kurslarında iştirak edib və hazırda 84 nəfərin kurslarda təlimi davam etdirilir.

Diqqətə çatdırılıb ki, xarici ölkələrdəki müqəddəs yerlərə ziyarətlərin təşkili ilə əlaqədar olaraq bir sıra tədbirlər həyata keçirilib. Belə ki, zəvvar qruplarının təşkili müvafiq olaraq nəzarətdə saxlanılıb, 1 yanvar 2022-ci il tarixdən bu günədək Naxçıvan Muxtar Respublikasından 319 nəfər xarici ölkələrdə yerləşən ziyarətgahlara səfər edib. Bunlardan 189 nəfəri İran İslam Respublikasının Məşhəd, 130 nəfəri isə Kərbəla ziyarətində olub. Bununla yanaşı, cari ildə dövlət-din münasibətlərinin daha yüksək səviyyədə tənzimlənməsi, eləcə də icmaların fəaliyyətlərinə ciddi nəzarətin təşkil olunması məqsədilə hər ay Naxçıvan şəhər Sarvanlar məscidində 15 icma rəhbərinin iştirakı ilə iclaslar təşkil edilib. Qeyd olunub ki, Ali Məclis Sədrinin diqqət və qayğısı ilə mart ayında Babək, Ordubad, Culfa və Kəngərli rayon dini icmalarına avtomobillər, iyun ayında isə Şahbuz və Sədərək dini icmalarına cənazə avtomobilləri, din xadimlərinə isə dövlət vəsaiti hesabına alınan yay geyimləri təqdim edilib.

Sonra məruzə ətrafında çıxışlar olub.

*



Yarım ilin yekunları və qarşıda duran vəzifələrlə əlaqədar "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətində keçirilən yığıncaqda cəmiyyətin direktoru Mahir Əliyev məruzə ilə çıxış edib. Bildirib ki, 2022-ci ilin 6 ayı ərzində Culfa Lokomotiv Deposunda lokomotivlər 112 min 874 kilometr yürüş edib, 13 milyon 991 min ton/kilometr brutto yük daşınıb. Hesabat dövründə 267 vaqon 15 min 783 ton yük daşınıb. Daşınmış yüklərin 231 vaqon 13 min 860 tonu "Gəmiqaya Daş Məhsulları Sənaye Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyətinin, 24 vaqon 1440 tonu Naxçıvan Mənzil İstismar Xidmətinin, 10 vaqon 465 tonu "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının, 2 vaqon 18 tonu isə bir nəfər fiziki şəxsin ünvanlarına olub. 2022-ci ilin 6 ayı ərzində yük-sərnişin qatarları vasitəsilə 35 min 606 nəfər sərnişin daşınaraq cəmiyyətin hesabına 16 min 49 manat vəsait daxil olub. Həmin dövrdə 13 min 671 kiloqram poçt-baqaj və 5 min 120 kiloqram yük-baqaj yükü daşınaraq 507,83 manat vəsait daxil olub.

Qeyd edilib ki, hesabat dövründə dəmir yolunun ayrı-ayrı sahələrində sağlamlaşdırma işləri aparılaraq qatarların hərəkətinin təhlükəsizliyi təmin edilib, lokomotivlər texniki baxışdan keçirilib, cari təmir işləri görülüb. Bakı şəhərindən sərnişin vaqonları üçün 250 ədəd, elektrovozlar üçün isə 100 ədəd əyləc qəlibi alınıb, 540 kiloqram sürtkü yağı tədarük edilib. Əlavə olaraq Bakı şəhərinə göndərilmiş 6 elektrovoz və 2 manevr teplovozu üçün təkər cütləri təmir olunaraq geri qaytarılıb. Defektoskop briqadası tərəfindən 480 kilometr baş yol, 63 kilometr qəbul-göndərmə yolu, 154 dəst yoldəyişən qurğu və 21460 ədəd qaynaq calağı yoxlanılıb. Xidməti ərazidə 6012 poqonmetr yolda ballast prizmasının çiyinləri bərpa edilib və 700 poqonmetr yolda qaldırma işləri aparılıb. Ordubad-Vəlidağ sahəsindəki baş və stansiya yollarında, eləcə də yoldəyişən qurğularda cari təmir işləri aparılaraq 1198 yararsız ağac şpal təzə ağac şpallarla, 36 yararsız ağac şpal isə yarımyararlı ağac şpallarla əvəz olunub.

Diqqətə çatdırılıb ki, cari ilin birinci yarısında əldə edilmiş uğurlar bundan sonra da davam etdirilməlidir. Belə ki, istismarda olan lokomotivlərin və vaqonların fasiləsiz işinin təmin olunması məqsədilə aparılan təmirlərin keyfiyyətinə nəzarət daha da artırılmalı, vaqonların yükvurma və yükboşaltma yerlərinə verilib götürülməsini, qatarların tərtibatını və manevr işlərinin maneəsiz aparılmasını təmin etmək üçün bütün zəruri tədbirlər görülməlidir. Payız-qış mövsümündə sərnişin vaqonlarının və aralıq stansiyalardakı növbətçi otaqların qızdırılması üçün daş kömür ehtiyatı yaradılmalıdır. Xidməti ərazidəki bütün yollara, yoldəyişən və süni qurğulara, keçidlərə, yol yatağına komisyon baxış keçirilərək nöqsanlar təcili aradan qaldırılmalıdır. Bütün İMB və rabitə avadanlıqlarında, eləcə də kabel təsərrüfatında nəzərdə tutulmuş təmir işləri vaxtında başa çatdırılmalıdır. Təmas şəbəkəsi xəttinin, eləcə də yüksək və alçaqgərginlikli elektrikötürücü hava xətlərinin qəzasız işlərinin təmin olunması məqsədilə bütün zədəli elementlər dəyişdirilməli, dartı yarımstansiyalarındakı kommutasiya aparatlarının etibarlı işinin təmin olunması məqsədilə onların rele mühafizəsi və mexaniki sazlığı yoxlanılmalıdır. Culfa bərpa qatarındakı texnikaların sazlığı daim diqqətdə saxlanılmalıdır. Maşın-mexanizmlər və texnikalar üçün tələb olunan hissələrin, yağ və sürtkü materiallarının ehtiyatı yaradılmalıdır.

Sonra məruzə ətrafında çıxışlar olub.

**Xəbərlər şöbəsi**

# Yarım ilin yekunları müzakirə edilib

Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasında 2022-ci ilin birinci yarım ilində görülən işlər və altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin



yeddinci sessiyasından irəli gələn vəzifələrlə bağlı tədbir keçirilib. Tədbiri giriş sözü ilə ittifaqın sədri Anar İbrahimov açıb. Bildirilib ki, ötən dövr ərzində şuraya toplanılan üzvlük haqlarına nəzarət gücləndirilib, daxil olan ərizə və şikayətlərə vaxtında və qanunun tələbləri əsasında baxılıb, bir çox təşkilatlarda müddəti başa çatmış Kollektiv Müqavilələr yenilənib, ittifaq üzvlərinin sağlamlığı diqqət mərkəzində saxlanılıb, onlar kurort və sanatoriya yollayışları ilə təmin olunub, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının tövsiyə xarakterli məktublarının icrası nəzarətə götürülüb, şuranın sədri Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının İcraiyyə Komitəsinin onlayn formatda keçirdiyi iclaslarında iştirak edib. Ötən dövr ərzində Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının fəaliyyətində bir sıra müsbət dəyişikliklər yaranıb, muxtar respublikada yeni yaranmış istehsal və xidmət sahələrinin hesabına İlk Həmkarlar İttifaqı təşkilatlarının sayı artıb. Şura hazırda 763 İlk Həmkarlar İttifaqı təşkilatlarını, 9 Birləşmiş Həmkarlar İttifaqı komitələrini, 6 muxtar respublika komitəsini özündə birləşdirir. İttifaq üzvlərinin sayı isə 46134 nəfərdir.



Diqqətə çatdırılıb ki, nazirlik, komitə və təşkilatların, dövlət qulluqçularının Ağbulaq İstirahət Mərkəzində istirahətləri də diqqət mərkəzində saxlanılıb, xüsusi qayğıya ehtiyacı olan ailələrin uşaqları, o cümlədən şəhid, qazi, hər iki valideynini itirmiş və valideyn himayəsindən məhrum olmuş, tək valideynli 50 uşaq üçün "Yay məktəbi", 25-27 iyul 2022-ci il tarixlərdə 6 təlimçi və 48 şagird üçün 3 günlük "STEAM Yay məktəbi", şəhid və qazi övladlarından, həmçinin xüsusi istedadı ilə fərqlənən sağlamlıq imkanları məhdud uşaqlardan ibarət 53 nəfərin iştirakı ilə "Zəfər düşərgəsi" təşkil edilib.

Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurası ötən il olduğu kimi, bu il də Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası İcraiyyə Komitəsinin 2021-ci il üzrə əməkdə, təhsildə və ictimai fəaliyyətdə xüsusi nailiyyətlər əldə etmiş gənclərə "İlin peşəkar gənci" fəxri adının təsis edilməsi haqqında keçirdiyi müsabiqədə fəal iştirak edib. Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurası İcraiyyə Komitəsi tərəfindən yaradılan müsabiqə komissiyası üzvlərinin, ümumilikdə, 7 sahə həmkarlar ittifaqı orqanlarından şuraya daxil olan 19 gənc içindən seçildiyi, daha çox uğurlara imza atan ittifaq üzvümüz olan 3 gənc Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası İcraiyyə Komitəsinin 4 mart 2022-ci il tarixli Qərarı ilə 2021-ci ilin "Peşəkar gənci" fəxri adına layiq görülüb.

Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının sədr müavini Xatirə İbrahimli çıxış edərək ötən yarım il ərzində qazanılan nailiyyətlərdən və şuranın gələcəkdə qarşıya qoyduğu məqsədlərdən danışıb.

Daha sonra 2021-ci il üzrə AHİK İcraiyyə Komitəsinin 4 mart 2022-ci il tarixli Qərarına əsasən muxtar respublikamızın ictimai həyatında, media sahəsində, bu və ya digər istiqamətlərdə fəallıq göstərən üç nəfər – Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətinin şöbə müdirinin müavini Miryunis Seyidov, AMEA Naxçıvan Bölməsinin Bioresurslar İnstitutunun, Biokimyəvi tədqiqatlar laboratoriyasının rəhbəri Surə Rəhimova, "Şərq qapısı" qəzetinin Humanitar siyasət şöbəsinin müxbiri Güntac Şahməmmədli Fəxri fərman, döş nişanı və pul mükafatı ilə təltif olunublar.

"Şərq qapısı" qəzetinin Humanitar siyasət şöbəsinin müxbiri Güntac Şahməmmədli çıxış edərək bildirib ki, bu gün muxtar diyarımızın hər bir sahəsində qeydə alınan inkişaf gənclərin bütün istiqamətlərdə önə çəkilməsinə, Vətənə, dövlətçiliyə sədaqət ruhunda formalaşmasına geniş imkanlar açıb. Bu gün ölkəmizdə milli maraqlara xidmət edən, sağlamdüşüncəli, vətənpərvər ruhlu gənc nəsil formalaşıb. Güntac Şahməmmədli mükafatlandırılan gənclər adından göstərilən diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib.

Sonra məruzə ətrafında çıxışlar olub.

2022-ci ilin ilk yarım ili ərzində görülən işlər və qarşıda duran vəzifələrlə bağlı Naxçıvan Muxtar Respublikasının Gənclər Fondunda da iclas keçirilib. İclası giriş sözü ilə fondun icraçı direktoru Cəbi Quliyev açaraq bildirib ki, 6 ay ərzində Ağbulaq İstirahət Mərkəzində 2 mərhələdə yay, 2 mərhələdə qış məktəbləri həyata keçirilib. Keçirilən düşərgələrdə 160 nəfər gəncin iştirakı təmin olunub. Bundan əlavə, gənclər üçün aid qurumlarla birgə Yeni Azərbaycan Partiyasının gənc fəalları üçün "Qış liderlik məktəbi" təşkil edilib. 3 gün ərzində reallaşan "Qış liderlik məktəbi"ndə partiyanın müxtəlif sahələrdə fəaliyyət göstərən 34 gənc üzvü iştirak edib.

Qeyd olunub ki, hesabat dövrü ərzində könüllülərlə işləyən məsul şəxslərin inkişafı da diqqətdə saxlanılıb. Azərbaycan Respublikasının Gənclər Fondu və Azərbaycan Könüllü Təşkilatları İttifaqı ilə birgə əməkdaşlıq sayəsində Naxçıvanda "Könüllülərlə İş üzrə İdarəçilərin İnkişaf Proqramı" həyata keçirilib. Muxtar respublikada könüllülük fəaliyyəti həyata keçirən qurumların könüllülər üzrə məsul şəxslərinin cəlb olunduğu proqramda 20 nəfər iştirak edib.

Diqqətə çatdırılıb ki, yarım il ərzində uğurla baş tutan tədbirlərdən biri də Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı və Gənclər Fondunun təşkilatçılığı, "Naxtel" Məhdud Məsuliyyətli Cəmiyyətinin sponsorluğu ilə ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü münasibətilə keçirilən "Naxçıvan marafonu – 2022" olub. 2000 gəncin qatıldığı marafonda kişi və qadın kateqoriyaları üzrə birinci-onuncu yerlərin qaliblərinə pul mükafatı, diplom, medal və qiymətli hədiyyələr



təqdim olunub. Qeyd edək ki, "Naxçıvan marafonu – 2022"yə yüzlərlə könüllü gənc dəstək göstərib.

Vurğulanıb ki, gənclər üçün yararlı tədbirlərdən biri də Erasmus+ Gənclik və Avropa Həmrəylik Korpusu proqramları üzrə Azərbaycanda Məlumat Mərkəzi tərəfindən Gənclər Mərkəzində gənclərlə görüşün keçirilməsi olub. Görüş zamanı gənclər üçün xaricdə təlim, seminar, gənclər dəyişim proqramı və xaricdə könüllülük proqramları ilə bağlı məlumat sessiyası təşkil edilib. Görüşdə 50-dən artıq gəncin iştirakı təmin olunub.

Bildirilib ki, yarım il ərzində şəhid ailələrinin ziyarət olunması da diqqətdə saxlanılıb. Belə ki, könüllü gənclərin iştirakı ilə muxtar respublikanın bir sıra bölgələrində 21 şəhid ailəsi ziyarət edilib. İkinci Qarabağ müharibəsi qaziləri ilə gənclərin görüşləri də mütəmadi təşkil olunub. Təşkil edilən görüşlərdə, ümumilikdə, 50-dən çox gənc 10 qazi ilə görüşüb, onların döyüş təəssüratlarını dinləyiblər.

İcraçı direktor qeyd edib ki, 2022-ci ilin birinci yarım ili ərzində Naxçıvan Muxtar Respublikasının Gənclər Fondu tərəfindən, ümumilikdə, 108 layihə və tədbir həyata keçirilib, bu tədbirlərdə, ümumilikdə, 7661 gənc iştirak edib.

Sonra məruzə ətrafında çıxışlar olub.

* * *

Naxçıvan Muxtar Respublikası Dövlət Arxiv İdarəsində keçirilən yığıncağı giriş sözü ilə idarənin rəisi Mehman Məmmədov açaraq qeyd edib ki, 2022-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikası Dövlət Arxivinə komplektləşdirmə mənbəyi olan 27 təşkilatdan və Ordubad, Culfa, Babək rayon dövlət arxivlərindən 17961 saxlama vahidi, rayon dövlət arxivlərinə 788 saxlama vahidi sənəd qəbul edilib. Naxçıvan Muxtar Respublikası Dövlət Arxivinə və rayon dövlət arxivlərinə, ümumilikdə, 18749 saxlama vahidi sənəd qəbul edilib. İyun ayında Naxçıvan Dövlət Tarix Muzeyi tərəfindən daimi mühafizə üçün dövlət arxivinə təhvil verilmiş 7813 adda eksponatın içərisində olan sənədlərin, fotoşəkillərin və digər materialların seçilərək "Dövlət arxivlərinin əsas iş qaydaları"na uyğun siyahılarının hazırlanması işləri hazırda davam etdirilir. Həmçinin Naxçıvan Muxtar Respublikası Dövlət Arxivində 6, rayon dövlət arxivlərində



4 yeni fond işi yaradılıb.

Vurğulanıb ki, 2022-ci ilin birinci yarısında Dövlət Arxivinə yeni qəbul olunan 17961 saxlama vahidinin siyahılarının elektron kataloqunun hazırlanması işləri icra edilib. Dövlət Arxivində mövcud olan skan aparatlarından istifadə etməklə 1, 2 və 18 nömrəli fondlara aid 256 saxlama vahidindən ibarət 10073 vərəq serverə köçürülərək elektronlaşdırılıb. Həmçinin tərtib edilmiş tematik kartlardan 689-da təsvir edilmiş məlumatlar kompüterə köçürülüb. Rayon dövlət arxivlərində 2022-ci ilin birinci yarısında, ümumilikdə, 10250 saxlama vahidinin siyahılarının elektron kataloqu hazırlanıb. Ordubad Rayon Dövlət Arxivində fond siyahılarının elektron kataloqunun hazırlanması işləri iyun ayında başa çatdırılıb, hazırda 4 rayon dövlət arxivində bu işlər davam etdirilir.

Sonda məruzə ətrafında çıxışlar dinlənilib.

**Xəbərlər şöbəsi**

Əhməd Cavad – 130

# İncə ruhlu şair

***Azərbaycan və Türk dünyası ədəbiyyatının görkəmli simalarından olan Əhməd Cavad Azərbaycan ədəbiyyatı və ictimai fikrinin inkişafında müstəsna rola malikdir. Məhz bu mühüm amili nəzərə alan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev "Əhməd Cavadın 130 illik yubileyinin qeyd edilməsi haqqında" Sərəncam imzalamışdır. Qüdrətli söz ustadı və istiqlal şairi Ə.Cavadın 130 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında təntənəli keçirilməsini təmin etmək məqsədilə Ali Məclisin Sədri tərəfindən "Tədbirlər Planı" təsdiq edilmişdir.***

Əhməd Cavad yaradıcılığının əsl tədqiqi respublikamız müstəqilliyini bərpa edəndən sonra başlanmışdır. Sovet dövründə radioda Sara Qədimovanın ifasında səslənən "Göy göl" mahnısından indi hamının əzbər bildiyi aşağıdakı bənd şeirin müəllifinin incə duyum tərzini bəyan edirdi:

*Kəsin eyş-nuşi, gələnlər, susun,*
*Dumandan yorğanı, döşəyi yosun.*
*Bir yorğun pəri var, bir az uyusun –*
*Uyusun dağların maralı Göy göl.*

1919-cu ildə 27 yaşlı Əhməd Cavadın yazdığı "Azərbaycan, Azərbaycan" şeiri özündən sonra yazılacaq bütün "Azərbaycan" şeirlərinə bələdçilik edəcəkdi...

*Dağlarının başı qarlı,*
*Sinəsi yaşıl ormanlı!*
*Dərələrin şirin barlı,*
*Azərbaycan, Azərbaycan!*

*Durna gözlü bulaqların,*
*Cənnət kimi yaylaqların!*
*Geniş-geniş oymaqların,*
*Azərbaycan, Azərbaycan!*

Və nəhayət:

*Qayaların əlvan mərmər!*
*Belində var qızıl kəmər!*




*Bir yanında Bəhri-Xəzər!*
*Azərbaycan, Azərbaycan!*

Əhməd Cavadın bir çox şeirlərinə mahnı bəstələnmişdir. "Çırpınırdın Qara dəniz", "Şükriyyəm üçün", "Gəncədən gəlirəm", "Sən ağlama" şeirləri və indi hamının əzbər bildiyi "Milli marş" bu qəbildəndir:

*Bir gülsən, dərmişəm gənclik bağından,*
*Bir gülü-çiçəyi dərmərəm sənsiz!*
*Kam aldım ömrümün oğlan çağından,*
*Bir bağa-bağçaya girmərəm sənsiz!*

*Şükriyyə taleyim, şükür Xudaya!*
*Gördüyüm doğrumu, yoxsa pək röya?*
*Dolub ürəyimə bir dadlı xülya,*
*Şirin günlərimi sürmərəm sənsiz!*

Məhz bu şeir Şükriyyə xanıma bir hədiyyə olmuşdur. Repressiyaya uğramış şairlərin həyat yoldaşlarına təklif edirdilər ki, "xalq düşməni" olan ərindən boşansın, əks-təqdirdə onu da həbs edəcəklər. Şükriyyə xanım 8 illik həbsi seçmiş, ancaq Əhməd Cavaddan boşanma ərizəsi yazmamışdır. "Gözüm yoldadır" və bir sıra şeirlər də Şükriyyə xanıma ithaf olunmuşdur.

"Sən ağlama" şeirində də incə şair ruhu özünü göstərir:

*Bən deyən yox, fələk deyən oldusa,*
*Əsdi yellər, gül yanağın soldusa,*
*Dərd əlindən ala gözlər doldusa,*
*Sən ağlama, bən ağlayım, gözəlim!*

Əhməd Cavadın "Bayatılar"ı bir kitab həcmindədir. Bu bayatılar tamamən xalq üslubundadır:

*Aşiqəm, gül alanda,*
*Gül bitər Gülalanda.*
*Şükri yadıma düşər,*
*Əlimə gül alanda.*

Qızı Almasa şair bir neçə şeir həsr etmişdir. Onlardan biri dərdin-ələmin ən incə poetik təsviridir. Bu şeir atanın öz qızını ölümün cəngindən xilas edə bilməməsini poetik dillə bəyan edir:

*Qüdrətim olsaydı, yaza bilsəydim,*
*Bir kağız üstündə bu dərdi, qızım!*
*Sənin müsibətin mənim dərdimdən,*
*Neyləyim ki, qat-qat betərdi, qızım!*

*Məktəb bacıların gələndə, zatən,*
*Can verən sən idin, canı çıxan mən!*
*Sən çıxıb gedərkən taza aləmdən,*
*Mənim alnımdakı nə tərdi, qızım!*

"Can verən sən idin, canı çıxan mən", "Toyuna aldığım xınam ağladı, Mənə qara daşlar gül verdi, qızım!" kimi ifadələr dərdin dözülməz qatını ifadə edir. "Qızım üçün" şeirində də qızının həyatını incə boyalarla təqdim edir: "On dördündə döndün ondördlük aya, Artıq gözəlliyin gəlmədi saya" kimi ifadələrlə taleyi sönmüş qızının xatirəsini əzizləyir.

"Dan ulduzu" şeirini yazanda şairin 22 yaşı olub:

*Bu qaranlıq gecə nə qədər sürdü,*
*Yetiş imdadıma, ey Dan ulduzu!*
*Barı sən gəl, mənə yuxu gəlmədi,*
*Yetiş fəryadıma, ey Dan ulduzu!*

"Qurban olduğum", "Şeirim", "Dərdim", "Şəhidlər", "Nədən yarandın", "Yazım gəl", "Gəlsəm hey...", "Kölgəm ilə mən" və bu kimi onlarla şeir Əhməd Cavad poeziyasının inciləridir.

Şairin "Novruz şeirləri" silsiləsindəki "Böyük çillə", "Kiçik çillə", "Xıdır Nəbi", "Yel Baba", "Qarının borcu", "Boz ay" kimi şeirləri etnoqrafik məzmun kəsb etdiyi kimi həm də uşaqların tərbiyəsinə poetik cığır salır.

Gəncədə təhsil illərində böyük Hüseyn Caviddən aldığı dərs onun ömür yoluna təkcə poetik işıq yox, həm də mərdlik dərsi olmuşdur. "Cavad" adının ifadə etdiyi saflıq "Cavid" adındakı əbədiliklə üzvi şəkildə qovuşmuşdur. Bu gün Şəmkir şəhərində ustad Üzeyir Hacıbəyovla Əhməd Cavadın bərabər heykəli milli monumentallığın poetik rəmzidir.

Yazımızı nikbin notlarla qurtarmaq üçün şairin "Gəncədən gəlirəm" şeirindən bir-iki yarpaq yada salaq:

*Gəncədən gəlirəm, yüküm xurmadı,*
*Gəncənin yolları burma-burmadı.*
*Gəncədə bir qız var teli durnadı –*
*Günəşə sən çıxma, mən çıxım deyir.*

*Gəncədən gəlirəm, sözə bənd olub,*
*Gəncənin meyvəsi şəkər-qənd olub.*
*Gəncədə bir qıza gözüm bənd olub –*
*Cavada sən baxma, mən baxım deyir.*

"Əsrinin ögsüzüdür dahilər", – demişdi böyük Cavid. Zaman hər şeyin ölçüsü oldu. Əhməd Cavad unudulmadı, yenidən daha incəliklə tədqiq edildi. 2018-ci ildə "Xatirə ədəbiyyatı" silsiləsindən buraxılmış "Əhməd Cavad haqqında xatirələr" kitabı şair haqqında yaxınlarının, doğmalarının ən səmimi sözləridir.

**Seyfəddin EYVAZOV**
***filologiya üzrə fəlsəfə doktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi***

## Taxılçılığın inkişafı və qarşıda duran vəzifələrlə bağlı müşavirə olub

*İyulun 7-də "Araz" Elm-İstehsalat Birliyinin təcrübə təsərrüfatında Naxçıvan Muxtar Respublikasında taxılçılığın inkişafı və qarşıda duran vəzifələrlə bağlı müşavirə keçirilib. Müşavirədə verilən tapşırıqlara uyğun olaraq Sədərək Rayon İcra Hakimiyyətində taxılçılığın inkişafı və qarşıda duran vəzifələr müzakirə edilib.*



Müşavirəni giriş sözü ilə açan rayon İcra Hakimiyyətinin başçısı Mahirə Adnayeva bildirib ki, adıçəkilən məsələ ilə bağlı keçirilən müşavirədə Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədri cənab Vasif Talıbov muxtar respublikada bu istiqamətdə həyata keçirilən tədbirlərdən danışıb, strateji məhsul olan taxılın istehsalını artırmaq qarşıya vəzifə kimi qoyulub.

İcra başçısı qeyd edib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin yüksək diqqət və qayğısı sayəsində Sədərək rayonunda taxılçılığa geniş yer verilib, taxıl sahələrinin mütərəqqi metod sayılan şırım üsulu ilə əkilməsi və aqrotexniki tədbirlərə düzgün əməl edilməsi nəticəsində sahələrdə bol məhsul əldə olunub. 2021-ci ilin payızında və 2022-ci ilin yazında, ümumilikdə, rayonda 2 min 441 hektar sahədə taxıl əkini həyata keçirilib. Bunun da 796 hektarını buğda, 1645 hektarını isə arpa əkini təşkil edib. Rayonda taxıl biçini 5 kombayn vasitəsilə keyfiyyətlə və itkisiz başa çatdırılıb. 8941 ton məhsul toplanıb və orta məhsuldarlıq 36,6 sentner olub. Rayonda 2022-ci ilin payızlıq və 2023-cü ilin yazlıq taxıl əkini üçün toxumun keyfiyyətlə tədarük edilməsi məqsədilə Sədərək kəndində 1 toxumtəmizləyən qurğudan istifadə edilir.

Diqqətə çatdırılıb ki, torpaq sahələrinin su təminatının yaxşılaşdırılması, yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılması istiqamətində bir sıra tədbirlər görülür. 280 metr suvarma və 470 metr təzyiqli boru xətlərində təmir-bərpa işləri görülüb. Sədərək-2, Sədərək-3, Sədərək-4 və "Şir arxı" nasos-stansiyalarının boru xəttində isə təmir işləri aparılıb.

Rayonda dövlət mülkiyyətində olan torpaq sahəsinin 401 hektarı əkin, 72 hektarı çoxillik əkmələr, 8 hektarı fiziki şəxslərin istifadəsində olan həyətyanı torpaq sahələridir. Bələdiyyə mülkiyyətində olan torpaq sahəsinin 1104 hektarı kənd təsərrüfatına yararlı torpaqlardır. Xüsusi mülkiyyətdə olan torpaq sahəsinin isə 2863 hektarı kənd təsərrüfatı təyinatlı torpaqlara aiddir.

İcra başçısı qeyd edib ki, əldə olunmuş uğurlarla yanaşı, bu sahədə bir sıra nöqsanlar da vardır. Belə ki, aparılan araşdırmaların nəticəsində məlum olub ki, Heydərabad qəsəbəsində 4 hektar, Dəmirçi kəndində 5 hektar olmaqla, ümumilikdə, əkinəyararlı 9 hektar əkin dövriyyəsinə daxil edilməyib. Sədərək Rayon İcra Hakimiyyətinin aid şöbəsi, rayon Meliorasiya və Su Təsərrüfatı İdarəsi və Sudan İstifadəedənlər Birliyi əkin sahələrinə suyun aqrotexniki normalarda verilməsini təmin etməli, şoranlaşmaya qarşı tədbirlər görülməli, torpaqların münbitliyi artırılmalıdır. Qəsəbə və kənd inzibati ərazi dairəsi üzrə nümayəndələr, bələdiyyələr və Sədərək Rayon İcra Hakimiyyəti başçısının aparatı taxılçılığın inkişafı ilə bağlı qarşıda duran vəzifələrin icrasını daim nəzarətdə saxlamalıdırlar. Mahirə Adnayeva Sədərək rayonunda kənd təsərrüfatının davamlı inkişafına göstərilən diqqət və qayğıya görə dövlətimizə minnətdarlığını bildirib.

Müşavirədə sözügedən məsələ ilə bağlı Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı naziri Bəhruz Bayramov, Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin rəisi Müslüm Cabbarzadə, Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri Yəhya Allahverdiyev və "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin sədri Vasif Məmmədov çıxış ediblər.

**Gülnarə HÜSEYNOVA**

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən 2019-cu il 9 avqust tarixli Sərəncamla təsdiq edilmiş "2019-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında rəqəmsal ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Proqram"da Naxçıvan Muxtar Respublikasının Dövlət Vergi Xidməti qarşısında qoyulmuş vəzifələr və verilmiş tapşırıqların icrası istiqamətində 2022-ci ilin birinci yarım ilində işlər davam etdirilib.*

*Dövlət proqramı icra olunur*

## Nağdsız ödənişlərin əhatə dairəsi genişlənir

Mövcud rəqəmsal ödəniş infrastrukturunun daha da təkmilləşdirilməsilə bağlı Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsi ilə birlikdə həyata keçirilən tədbirlər nəticəsində 1 iyul 2022-ci il tarixə muxtar respublika üzrə POS-terminal aparatlarının sayı 1590, ödəniş terminallarının sayı 154 ədəd olmaqla onların 57-sini MilliÖn ödəniş terminalı təşkil edib. Bankomatların sayı isə 118 olub. Cari ilin birinci yarım ilində nağdsız ödənişlərin həcmi 86 milyon 206 min 323 manat olub ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 30 milyon 17 min 595 manat çoxdur. Ödənişlərin 23 milyon 48 min 715 manatı POS-terminallar, 63 milyon 157 min 608 manatı isə internet və digər ödəniş vasitələri ilə həyata keçirilib.

Vergi orqanları tərəfindən vergi ödəyicilərini və sahibkarları maarifləndirmə işləri aparılıb, cari ilin birinci yarım ilində özəl sektorda 13 vergiödəyicisi üzrə 54 işçinin əməkhaqqının ödəniş kartları vasitəsilə ödənilməsi təmin edilib.

Yeni yaradılan publik hüquqi şəxs statuslu müəssisələrdə mütəmadi maarifləndirmə işləri aparılmaqla, 4 publik hüquqi şəxsin 4 obyektində ödənişlərin nağdsız qaydada qəbul edilməsi üçün POS-terminalların quraşdırılması təmin olunub.

Muxtar respublika ərazisində fəaliyyət göstərən POS-terminal quraşdırılmış ticarət, iaşə və digər xidmət obyektləri də ödənişlərini nağdsız qaydada həyata keçirib. Belə ki, qeyd edilən dövrdə 391 vergiödəyicisi tərəfindən POS-terminal hesabına alınmış kartlar vasitəsilə 251 min 635 manat, 1465 vergiödəyicisi tərəfindən isə öz şəxsi kartları vasitəsilə 626 min 31 manat vergi, sosial və dövlət büdcəsinə digər ödənişlər nağdsız qaydada ödənilib.

Xidmət mərkəzləri və POS-terminal quraşdırılmış kənd mərkəzlərində birinci yarım il üzrə sahibkarlıq subyektləri və vətəndaşlarla 14 halda maarifləndirici görüşlər keçirilib, fevral ayında 2021-ci ilin ikinci yarım ilinin nəticələrinə uyğun olaraq daha çox nağdsız ödənişlər aparan vətəndaşlar arasında "Nağdsız ödəyin, hədiyyə qazanın!" adlı həvəsləndirici tədbirin 16-cı tirajı keçirilib və muxtar respublika üzrə 431 sakinə 25 min manat dəyərində müxtəlif hədiyyələr təqdim olunub.

***Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin mətbuat xidməti***

*Lap qədim zamanlardan üzübəri diyarımızın hər qarış torpağı özünün sayılıb-seçilən məhsulları ilə tanınıb və yurdumuza böyük şöhrət qazandırıb. Məmləkətimizin bir çox ünvanlarında meyvəçilik, bir neçəsində bağçılıq, bostançılıq, heyvandarlıq əsas təsərrüfat sahəsi hesab olunduğu kimi, muxtar diyarımızın əlverişli iqlim şəraiti və zəngin təbii mühiti də burada təsərrüfatın bir neçə sahəsinin təşəkkül tapmasına səbəb olub, zəhmətsevər insanların bağ-bağatlarında yetişdirdiyi məhsulları isə yurdumuzun əsas simvoluna çevrilib. Muxtar respublikamızın münbit torpaqlarında yetişən məhsullarımız nəinki ölkəmizdə, hətta dünyanın bir çox regionlarında əl-əl axtarılır. Elə həmin dadlı-tamlı məhsullarımızdandır yay süfrələrimizin bəzəyi olan, dadı orta əsr səyyahlarının xatirələrində yer alan Şahtaxtı qovunu.*

*Ailə təsərrüfatlarımız*

## Dadı orta əsr səyyahlarını da heyrətləndirmiş *Şahtaxtı qovunu*

Məlumdur ki, qədim postsovet məkanında Naxçıvanın qarpızı, duzu, pendiri diyarımızı dünyada tanıdan əsas brend məhsullardan olub. Adını çəkdiyimiz Şahtaxtı qovunu isə hələ orta əsr səyyahlarının gündəliklərində adını xüsusi olaraq qeyd etdiyi bostanlarımızın dadlı bəhəri kimi sevilib, seçilib. Ötən əsrlərdən etibarən yurdumuzda bu məhsulun yetişdirilən bir çox sortları, o cümlədən "Qızılburun", "Göy həmkar", "Sarı həmkar", "Almatoxum", "Ələmdar", "Qocafəndi", "Çubuq həmkar", "Qara şineyvaz", "Ağ şineyvaz" kimi növləri öz dadı, şirinliyi ilə yeyənləri həmişə məst etmişdir:

*"Qızılburun", "Göy həmkar",*
*Eynidir, seçmək olmaz.*
*"Almatoxum", "Ələmdar",*
*Dadından keçmək olmaz.*

Bağ salmaq, bostan becərmək, belə ləziz təamları yetişdirmək zövqlü olduğu qədər həm də çətin, ağır zəhmət və böyük məsuliyyət tələb edən işdir. Hər bir məhsulun keyfiyyətli olması, alıcılar tərəfindən xoş rəy alması təsərrüfatçı üçün əsl mükafatdır, tökdüyü alın tərinin layiqli nəticəsidir. Bunun uzun illər həyatını torpağa, halal zəhmətə bağlamış təsərrüfat adamları da dilə gətirir. Uzun illər bağçılıq-bostançılıqla məşğul olmuş, dadlı-tamlı Şahtaxtı qovunu becərməklə dolanışığını təmin edən, "Halal zəhmət, minnətsiz çörək Yaradanın bəndəsinə qismət etdiyi ən böyük mükafatdır", – deyən təsərrüfatçı ***Camaləddin Mahmudov***la həmsöhbət oluruq.



Uzun illərdir ki, Şahtaxtı qovunu yetişdirən Camaləddin kişi diyarımızda becərilən qovun sortlarından söhbət açaraq deyir: – Muxtar diyarımızda müxtəlif adlarla tanınan qovunun bir çox sortları vardır ki, onlar məmləkətimizdə ən çox yetişdirilənlər sırasındadır. Bu növlərin əkilib-becərilməsinə Babək, Kəngərli, Şərur və Sədərək rayonlarında geniş yer verilir. Lakin qovun dedikdə ilk ağıla gələn Şahtaxtı kəndi olur. Kəngərli rayonunda elə əkin sahəsi tapılmaz ki, orada heç olmasa, bir-iki kol da olsa, qovun əkilməsin. Bu, təsadüfi deyil. Çünki rayonumuzun, əlalxüsus da, Şahtaxtının torpağı bağçılıq-bostançılıq üçün çox əlverişlidir. Kəndimizin, necə deyərlər, brend məhsulu olan Şahtaxtı qovunu tutma üsulu ilə yalnız bu kənddə yetişdirilir. Tarixçilər bu üsulla qovunyetişdirmə ənənəsinin XIII əsrdən etibarən yarandığını söyləyirlər. Bu qovunu yetişdirmək çox zəhmətli olduğundan böyük bir sahədə ancaq bir neçə qovunu tutma kimi saxlamaq olur. Qonaqpərvər həmyerlilərimiz bu qovunu əzizləyib uzaqda yaşayan qohum-əqrəbası, ya da ki, qonağı üçün saxlayır. Müsahibimizin sözlərinə görə, tutma qovunu hasilə gətirmək üçün əvvəlcə əkiləcək ləklər hazır vəziyyətə gətirilir və suvarma işləri görülür. Sonra bir-iki gün öncədən isladılan toxum ocaqlara basdırılır. Hər ocağa beş-altı toxum salınır. Həmin toxumlar bir həftə ərzində cücərməyə başlayır. Sonra kollar seyrəldilir və bu kollardan ən irisi və şux olanı saxlanılır. Digər kolların ləkdən uzaqlaşdırılması və yalnız ən iri kolun saxlanılması ona görədir ki, balaca şitilə verilən su yalnız birinin ərsəyə gəlməsinə sərf olunsun. Əkildikdən, təxminən, 20-30 gün sonra ona ikinci dəfə su verilir. Suvarıldıqdan sonra kollar çiçək tökməyə başlayır və həmin çiçəklərdən balaca qıralar əmələ gəlir, buna isə el arasında "gülburnu" deyilir. Həmin gülburnular ağız suyu ilə isladılır, bu da "dahangirləmə" adlanır. İsladılan gülburnular torpaqlanaraq açıq şəkildə 2-3 gün saxlanılır. Saflığı bir daha yoxlanıldıqdan sonra öz yarpağına bükülərək yerə basdırılır. Buna el arasında "bələnmə" ya da "quylama" deyirlər. 20-30 gün torpağa basdırılmış şəkildə qalan bitkini mütəmadi olaraq nəzarətdə saxlamaq isə ən vacib işlərdəndir. Müəyyən müddətdən sonra bitki torpaqdan çıxarılır və daha 15-20 gün açıq şəkildə saxlanılır. Bu proseslər yekunlaşdıqdan sonra, demək olar ki, artıq qovunumuz tam yetişib.



Müsahibimiz deyir ki, əvvəllər Şahtaxtı kəndində, demək olar ki, hər kəs öz təsərrüfatında növbənöv qovun sortlarının əkini ilə məşğul olurdu. Yadımdadır ki, ötən əsrin 70-80-ci illərində kəndimizdə hər bir təsərrüfatdan orta hesabla 1 tona yaxın Şahtaxtı qovunu tədarük edilirdi. Zaman keçdikcə qovuna maraq azaldı. Ona görə ki, Şahtaxtı qovununu əkib-becərmək olduqca çətindir və çox zəhmət tələb edir. Gərək mütəmadi olaraq onun qayğısına qalasan, qulluq göstərəsən. Camaləddin Mahmudovun sözlərinə görə bir koldan 1 qovun götürmək mümkündür. Əkilən kollardan qovundan savayı, qıralar da tədarük olunur. Həmin qıralardan isə müxtəlif turşular hazırlanır. Həmçinin müxtəlif salatlarda da istifadə edilir. Şahtaxtı qovunu dilimləyərək qurutmaq və soyuq qış aylarında quru yemiş halında istifadə etmək də mümkündür: – Xatırlayıram ki, əvvəllər kəndimizdə bu qovun növünün əkini ilə məşğul olanlar daha çox "Ağnabat"ı dilimləyərək qurudur, qarlı-şaxtalı günlərdə quru yemiş kimi yeyirdilər, hətta şəkər əvəzi çay içilən zaman da istifadə edilirdi. "Qara şineyvaz" və "Ağ şineyvaz" kimi sortları isə qabığının qalınlığına görə uzun müddət saxlamaq mümkün olurdu, hətta qışın ortalarına kimi bu sort qovunlar adi şəraitdə xarab olmadan qalırdı.

Son olaraq müsahibimiz uzun illərdir, qazandığı təcrübəsinə söykənərək bu bostan bitkisinin insan sağlamlığına olan faydalarından da danışdı: – Hər bir kəs qovunla yanaşı, digər bostan məhsullarını alarkən də diqqətli olmalıdır. Qovunlar təzə, təmiz, sağlam, rəngi və forması öz sortuna müvafiq olmalıdır. Alıcıların əksəriyyəti təcrübəsizlikdən hamar qovunların şirin olduğunu güman edirlər. Əslində isə üstü torabənzər, qəhvəyi şaxələri olan qovunlar daha şirin və keyfiyyətli olurlar. Yaxşı qovunun necə seçilməsinə gəlincə deyirlər ki, ən gözəl məhsula insana rahatlıq gətirən özünəməxsus iyi, bu torpaqların bərəkəti, saf suları, insanların zəhməti hopur. Lap əvvəllər ağbirçək nənələrimiz xalq təbabətinə istinad edərək qovunun dənələrini və qabığını qaynadıb suyunu xəstə olanlara, həzm prosesi zamanı əziyyət çəkənlərə, ağciyərdə nasazlığı olanlara içirərdi. Çünki o, mədə-bağırsaq xəstəliklərinin, həm də tənəffüs yolu problemlərinin qarşısını alır.

Təsərrüfatçının fikirlərinə əlavə edərək bildirək ki, bu gün tutma üsulu ilə yetişdirilən Şahtaxtı qovununun əkilməsi qədər, onun genefondunun qorunması da olduqca mühüm amildir. Sevindirici haldır ki, indi Şahtaxtı kəndindəki onlarla təsərrüfatda bu qovun növü yetişdirilir. Ümid edirik ki, gələcək illərdə Şahtaxtı qovununu yetişdirən təsərrüfatçıların sayı daha da çoxalacaq, halal zəhmət tələb edən bu işə maraq lap da artacaq və əvvəllər olduğu kimi, muxtar respublika bazarları daxil olmaqla diyarımızın hüdudlarından kənarda da Şahtaxtı qovununu daha çox görə biləcəyik:

*Qovundan çox danışdıq...*
*Bostançımız da dindi:*
*-Şahtaxtı qovunları,*
*Bal yox, baldan şirindi!*

Yurdumuzun səfalı təbiəti, münbit torpaqları zəhmətsevər insanların əlində alın təri ilə birləşərək, dadlı-tamlı, can dərmanı olan nemətlər yetişdirir. Bağ-bostanlarımızdan süfrələrimizə təmiz, təravətli, ləziz məhsulları öz zəhmətləri hesabına gətirən təsərrüfatçılarımızla söhbət insanda xoş duyğular, əməyə sevgi yaradır. Arzu edirik ki, bundan sonra da bağ-bostanlarımızdan, süfrələrimizdən bolluq və bərəkət əskik olmasın.

**Məcid RƏŞADƏTOĞLU**

*Azərbaycanda geniş yayılmış zərb musiqi alətləri arasında nağara ən qədim alətlərdən biri hesab edilir. Təsadüfi deyil ki, Qobustan ərazisində bu günə qədər qorunub saxlanmış qavaldaş, başda nağara olmaqla bir çox zərb alətinin sələfi sayılır. Dahi şairimiz Nizami öz əsərlərində bu alətin adını çəkir. Nağara Ağqoyunlu hökmdarı Uzun Həsənin sarayında fəaliyyət göstərən musiqiçilərin tez-tez istifadə etdiyi alətlərdən olub. Nağaranın professional musiqi aləti kimi müasir dövrümüzə qədər öz əhəmiyyətini qoruyub saxlamasında 1931-ci ildə görkəmli bəstəkarımız Üzeyir Hacıbəyli tərəfindən yaradılan xalq çalğı alətləri orkestrinin tərkibinə bu alətin də salınması mühüm rol oynayıb. XX əsrin 50-ci illərində isə musiqi təhsili müəssisələrində nağara aləti tədris olunmağa başlanılıb.*

## Ritmlərlə yaşanan ömür



Azərbaycanın qədim yaşayış məskənlərindən olan Naxçıvanda da nağara alətinə xüsusi maraq göstərilib. Ordubad rayonu ərazisində, Tivi və Nəsirvaz kəndlərindən şimal-şərqdə, Zəngəzur silsiləsinin suayrıcında yerləşən Gəmiqaya zirvəsində Qobustandakı qavaldaşa oxşar qayaların mövcud olması burada da hələ qədim zamanlardan zərb alətlərinin yeri və rolu haqqında danışmağa imkan verir.

Naxçıvanda musiqi mədəniyyətinin inkişafında əhəmiyyətli rol oynayan musiqiçilər arasında nağara ifaçıları da var. Belə ifaçılardan biri də Qurban Qurbanovdur.

Qurban Qurbanov 1969-cu ildə Naxçıvanda nağara ifaçılıq məktəbinin yaradıcılarından biri olan Pənah Qurbanovun ailəsində dünyaya göz açmışdır. Balaca Qurbanı hələ kiçik yaşlarından ritmlərlə zəngin bir mühit əhatə etmişdir. Atasının evdə etdiyi məşqlər, onun yaradıcı fəaliyyəti Qurban üçün sənətə doğru atılan ilk addımların başlanğıcı olmuşdur. Pənah müəllim Naxçıvanda nağara ifaçılıq sənətinin sirlərini dərindən bilən, bu sənətə könül verərək ifaçıların yetişməsində əzmkarlıqla çalışan musiqiçilərdən sayılırdı. Təsadüfi deyil ki, Naxçıvanda nağaraçalanlardan ibarət ifaçı kollektivinin yaranması Pənah Qurbanovun adı ilə bağlıdır.

Qurban Qurbanov atası Pənah Qurbanovun səhnə fəaliyyətinin bir parçası olmuşdur. P.Qurbanov "Nağaraçalanlar" ansamblı ilə iştirak etdiyi tədbirlərə balaca Qurbanı da aparmış, sənətdə hələ ilk addımlarını atan Qurban Qurbanov səhnələrdə püxtələşmişdir.

Atasının yolu ilə getməyi qət edən Qurban Qurbanov nağara ifaçısı kimi ilk dəfə 1974-cü ildə Naxçıvanda Həmkarlar İttifaqının nəzdində yaradılan ansamblda çıxış etmiş, daha sonra bu kollektivin solo ifaçılarından biri olmuşdur. O həmin ildən başlayaraq Azərbaycanda keçirilən müxtəlif səpkili tədbirlərdə Naxçıvanı layiqincə təmsil etmişdir.

Ulu öndər Heydər Əliyevin şəxsi təşəbbüsü ilə Bakıda keçirilən Naxçıvan günlərində P.Qurbanovun rəhbərliyi ilə "Nağaraçalanlar" ansamblının iştirakı bu sənətin Naxçıvanda layiqli davamçılarının yetişdiyini sübut edən ən bariz nümunədir. Onun övladları da bu sənətə könül verənlərdəndir. Qurbanovlar ailəsinin nağara ifaçılığı sahəsində yaradıcı fəaliyyəti diqqətdən kənarda qalmamışdır. Təsadüfi deyil ki, ulu öndər Heydər Əliyev 1974-cü ildə P.Qurbanovun digər oğlu Mustafa Qurbanova imzalı nağara hədiyyə etmişdir.

Ümumiyyətlə, Qurbanovlar ailəsi nağarada ifaçılıq sənətini yüksək səviyyədə təmsil etmiş, xarici ölkələrdə etdikləri çıxışlarla yadda qalmışlar. 1981-ci ildə Vyetnam, Hindistan, Pakistan kimi ölkələrdə keçirilən Azərbaycan mədəniyyəti günlərində P.Qurbanovun ailə üzvləri – qızı Gülşən Qurbanova xanəndə, Ruhizər Qurbanova xanəndə, iki oğlu – Mustafa və Qurban Qurbanovlar isə nağara ifaçıları olaraq müşayiətçi kimi çıxış edirlər.

1983-cü ildə "Nəqşicahan" ansamblında fəaliyyət göstərən Qurban Qurbanov Nisə Qasımova, Təranə Vəlizadə, Bilal Əliyev kimi müğənnilərlə "Yeni il şənliyi"ndə eyni səhnəni paylaşmış, 1985-ci ildə isə akademik Yusif Məmmədəliyevin 80 illik yubileyi münasibətilə Naxçıvan Dövlət Universitetində təşkil olunan tədbirdə yaddaqalan nömrələrlə çıxış etmişdir.

Bacarıqlı nağara ifaçısı kimi tanınan Qurban Qurbanov Naxçıvan Orta İxtisas Musiqi Məktəbinin məzunudur. O, 1 sentyabr 1986-cı ildən etibarən Naxçıvan Dövlət Filarmoniyasının Xalq Çalğı Alətləri Orkestrində nağara ifaçısı olaraq işləmişdir. Naxçıvan Dövlət Filarmoniyasının qastrol səfərlərində iştirak edən Q.Qurbanov həmin kollektivlə 1992-ci ildə Türkiyədə, 2009-cu ildə isə Türkmənistanda Azərbaycan Mədəniyyəti Günlərində çıxış etmişdir.

Qurban Qurbanov həm də müəllim kimi bu sənətin sirlərini gənc nağara ifaçılarına öyrədir, özünün yaratdığı ifaçı kollektivlərində onların potensialının tam mənası ilə açılması üçün əlindən gələni əsirgəmir. Təsadüfi deyil ki, 1998-ci ildə Cavidabad Kənd Uşaq Musiqi Məktəbində müəllim kimi işləyən Qurban Qurbanovun yaratdığı nağara ifaçılarından ibarət musiqi kollektivi müxtəlif tədbir, bayram şənliklərini öz ifası ilə bəzəmişdir. Kollektiv 1999-cu ildə uşaq musiqi məktəbləri arasında keçirilən müsabiqədə I yerə layiq görülmüşdür.

Hərarətli ifaçılıq imkanlarına malik Qurban Qurbanov 2001-ci ildə Naxçıvan şəhərində 2 nömrəli uşaq musiqi məktəbində Ə.Məmmədovun yaratdığı xalq çalğı alətləri ansamblında nağara ifaçısı olaraq dəvət alır. Burada da öz fəaliyyəti ilə nüfuz qazanır. Qurban Qurbanov hazırda 2 nömrəli Uşaq İncəsənət və Musiqi Məktəbində müəllim işləyir. O, eyni zamanda usta kimi bu qədim alətin təmiri işi ilə də məşğuldur.

Qurban Qurbanovun nağara ifaçısı kimi peşəkar fəaliyyəti daim diqqət mərkəzində olmuşdur. Təsadüfi deyil ki, o və nağara sənətinin sirlərini öyrətdiyi tələbələri dəfələrlə muxtar respublika səviyyəsində keçirilən müsabiqələrin qalibi kimi mükafatlar, fəxri fərmanlar, diplomlarla təltif edilmişdir.

Qurban Qurbanov Naxçıvanda nağara ifaçılığı sahəsində göstərdiyi səmərəli fəaliyyətinə görə 2015-ci ildə "Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi" fəxri adına, 2016-cı ildə isə Prezident mükafatına layiq görülmüşdür.

Qədim tarixi ənənələrə malik milli nağara ifaçılığı sənəti məhz Qurban Qurbanov kimi fədakar insanların simasında müasir günümüzədək yaşamış və gələcək nəsillərə ən gözəl sənət sahəsi kimi miras olaraq qalacaqdır.

**Ruhiyyə DÜNYAMALIYEVA**
***Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsinin əməkdaşı***

*Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurası tərəfindən 2022-ci ilin iyun ayında muxtar respublikada fəaliyyət göstərən teleradioların monitorinqi aparılmış, fəaliyyətləri təhlil edilmişdir. Müşahidə edilən nöqsanlar operativ şəkildə teleradiolara bildirilmiş və aradan qaldırılmışdır.*

## Teleradioların fəaliyyəti diqqətdə saxlanılır

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən qəbul edilmiş fərman və sərəncamlar, Dövlət proqramlarının icrası teleradioların efirində operativ şəkildə işıqlandırılmışdır.

Hesabat dövründə Naxçıvan televiziyasında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iştirak etdiyi tədbirlərə həsr olunmuş 10 telematerial hazırlanmışdır.

İyun ayında televiziyanın proqram cədvəlində əlamətdar günlərlə bağlı verilişlər üstünlük təşkil etmişdir. Hesabat dövründə yaddaqalan digər verilişlər sırasında "Günün tələbi", "Öncə sağlıq", "Bərəkət", "Nuhçıxan-Naxçıvan", "Din və cəmiyyət", "Birlikdə öyrənək", "Çağdaş təhsil", "Yaşıl işıq", "Həftə içi" adlı telelayihələrin adlarını çəkə bilərik.

Qeyd edək ki, 22 aprel 2022-ci il tarixdə Televiziya və Radio Şurasının fəaliyyəti və qarşıda duran vəzifələrlə bağlı keçirilən iclasda verilən tapşırıqlara əsasən televiziya və radiolarda ədəbi dil normalarının qorunması ilə əlaqədar monitorinq keçirilmiş, ədəbi dil normalarına riayət, ümumilikdə, müsbət qiymətləndirilmişdir.

İyun ayında Naxçıvan radiosunda hesabat dövründə efirə verilən "Teatr görüşləri", "Yazıçı və zaman", "Təhsil və zaman", "Retro Azərbaycan", "90 ilin səsi", "Zərif qəhrəman", "Könül dünyamız", "Sizdən soruşuruq" verilişləri yaddaqalan olmuşdur.

"Kanal 35" televiziyasının efir fəaliyyəti yaxından izlənilmiş, televiziya ilə qarşılıqlı yaradıcılıq mübadiləsi aparılmışdır. İyun ayında da müşahidə edilən çatışmazlıqlar televiziyaya bildirilmiş, yaradıcı işlə bağlı təkliflər diqqətə çatdırılmışdır. İyunun 11-də muxtar respublikada ilk dəfə keçirilən "STEAM təhsil festivalı"nın gündəliyi operativ olaraq işıqlandırılmışdır. "STEAM həftəsi", "STEAM təhsil festivalı", "STEAM Naxçıvan" kimi telemateriallları uğurlu layihə kimi qiymətləndirmək olar.

Televiziya və Radio Şurası və "Kanal 35" televiziyasının birgə əməkdaşlığı ilə televiziyalarda tamaşaçıların yaş həddini təyin edən xəbərdaredici nişanlarla bağlı sosial çarx hazırlanmışdır ki, bu çarx artıq efirə yayımlanmaqdadır.

Hesabat dövründə "Naxçıvanın səsi" radiosunun efiri izlənilmiş, təqdim edilən konsert proqramları və canlı verilişlərin təhlili aparılmışdır. İyun ayında radio yeni bir layihə olan "Şagirdlə efir vaxtı" verilişini təqdim etmişdir. Ay ərzində "Salam Naxçıvan", "Təhsilə dair", "Laləli dəqiqələr", "Söz inciləri", "İdman saatı" və digər canlı verilişlər efirə yayımlanmışdır.

Naxçıvan Dövlət Universiteti televiziyasının fəaliyyəti yaxından izlənilmiş, televiziyaya yaradıcı dəstək göstərilmiş, yol verilmiş nöqsanların efirəqədərki prosesdə aradan qaldırılması ilə bağlı işlər aparılmışdır. İyunun 6-da Universitet televiziyasının efirində Naxçıvanda keçirilmiş I Beynəlxalq Tibbi Forumun tanıtım çarxı hazırlanaraq efirə yayımlanmışdır. Videomaterial yaradıcılıq baxımından yaddaqalan olmuş, sosial şəbəkə platformalarında ən çox izlənilən və paylaşılan materiallar sırasında yer almışdır.

***Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurası***

## Muxtar respublikada ekoloji tarazlıq qorunur

*Muxtar respublika ərazisində ekoloji tarazlığın qorunması, əlverişli ekoloji mühitin yaradılması, insanların sağlam ətraf mühitdə yaşamasının təmin edilməsi məqsədilə uğurlu sosial-ekoloji siyasət həyata keçirilir.*



İyun ayında da ətraf mühitin mühafizəsi, qanunsuz ov edilməsi, meşə fondu torpaqlarından qanunsuz istifadə, ətraf mühitə atılan tullantıların normadan artıq olması hallarına qarşı mübarizə aparılması məqsədilə 55 yoxlama-reyd keçirilmiş, bu sahədə 35 inzibati xəta qeydə alınmış və qanunauyğun tədbir görülmüşdür. Muxtar respublika təbiətinin qorunması üçün inzibati tədbirlərlə yanaşı, əhali arasında ekoloji-hüquqi maarifləndirmə tədbirləri də icra edilmişdir. Bu məqsədlə Ordubad rayonunun Dırnıs kəndində ətraf yaşayış məntəqələrinin də nümayəndələrinin iştirakı ilə əhali arasında ekoloji-hüquqi maarifləndirmə tədbiri keçirilmişdir.

Hesabat ayında təbii ehtiyatlardan istifadəyə və çirkləndirici maddələrin ətraf mühitə atılmasına görə 10 müəssisəyə ekoloji ödəniş tətbiq olunmuş, 53 müəssisə tərəfindən təbii ehtiyatlardan istifadə və ətraf mühitə atılan tullantılara, 13 müəssisə tərəfindən isə mineral xammal bazasınının bərpasına ayırmalara görə nazirliyin xüsusi hesabına ekoloji ödəniş həyata keçirilmişdir. Həmçinin 11 müəssisə tərəfindən atmosfer havasına atılan tullantılara görə xüsusi icazə sənədinin alınması üçün müraciət edilmiş və ödəniş haqqı nazirliyin xüsusi hesabına köçürülmüşdür.

Ötən ay Naxçıvan şəhəri, Ordubad, Şərur, Babək, Kəngərli, Sədərək və Culfa rayonlarının 28-dən çox yaşayış məntəqəsi ərazisində monitorinqlər aparılmış, su mühiti, məişət, tibbi və bərk tullantıların idarə olunması və yaşıllıqların mövcud vəziyyəti öyrənilmişdir. Monitorinqlər zamanı müəyyən çatışmazlıqlar da aşkar edilmiş, onların aradan qaldırılması üçün icrası məcburi tapşırıqlar verilmişdir.

Sədərək Rayon Su Monitorinq Laboratoriyasında iyun ayı ərzində Arazın və Arpaçayın muxtar respublikaya daxil olan hissəsindən və Sədərək rayonu ərazisindən keçən "Şir arxı"ndan hər birindən 4 olmaqla, ümumilikdə, 12 su nümunəsi götürülərək analiz aparılmışdır. Aparılan analizlərdə manqan, nikel və dəmir norma həddi aralığında olmuş, mis, qurğuşun, sink, alüminium və tritium izotopunun radioaktivlik dozası norma həddini keçməmişdir.

Hesabat ayında Naxçıvan-Şərur və Naxçıvan-Çalxanqala avtomobil yollarının sağ kənarlarında yeni püstə bağının salınması üçün 2 hektar sahədə yeraltı damcılı suvarma sistemi quraşdırılmış, püstə toxumları və nazirliyin tabeliyində olan tingçilik sahələrində ərsəyə gələn 560 püstə fidanından istifadə olunmaqla əkin aparılmışdır. Qoşadizə tingçilik sahəsindəki püstə, alma, tut və çinar toxmacarlıqlarına 50 kiloqram gübrə verilmiş, 10 hektar sahədə suvarma aparılmış, 2,5 hektar sahə alaq otundan təmizlənmişdir. Ötən illərdə salınmış meyvə bağlarına aqrotexniki qaydada qulluq göstərilmiş, 55 hektar sahədə ərazilərin otu biçilmişdir. Hər il olduğu kimi, bu il də nazirlik tərəfindən iməciliklər yolu ilə salınmış meyvə bağlarından 6500 kiloqram müxtəlif meyvələr toplanaraq hərbi hissələrə sovqat aparılmışdır.

Muxtar respublika ərazisində yerləşən meşə zolaqlarında, xüsusi mühafizə olunan təbiət ərazilərində yanğın təhlükəsizliyinin təmin olunması və qabaqlayıcı tədbirlərin həyata keçirilməsi məqsədilə Fövqəladə Hallar Nazirliyi ilə birgə təsdiq olunan Tədbirlər Planına uyğun olaraq televiziyada maarifləndirici xarakterli dəyirmi masa keçirilmişdir.

Hesabat ayında Zəngəzur Milli Parkına aid olan muzey fondundakı herbarilər və heyvan müqəvvaları yenilənmişdir. Geoloji Axtarış və Kəşfiyyat İdarəsi üzrə geoloji axtarış, kameral və ümumi xarakterli işlər yerinə yetirilmişdir. Torpaqların münbitliyinin, geobotaniki tərkibinin qorunması və bərpası, otlaqlardan istifadənin tənzimlənməsi sahəsində işlər davam etdirilmiş, ekoloji baxımdan istifadəyə yararlı 23 min 961 hektar otlaq sahəsi fermer, fərdi təsərrüfat sahiblərinin istifadəsi üçün ayrılmışdır.

Gənclərlə işin təşkili məqsədilə ekologiya könüllülərinin və bir qrup gəncin iştirakı ilə Güznüt gölü ətrafında təmizlik aksiyası keçirilmişdir. Eyni zamanda Ümumdünya Ətraf Mühitin Mühafizəsi Günü ilə əlaqədar olaraq hami ixtisas tələbələrinin Zəngəzur Milli Parkının Şahbuz ərazisinə ekskursiyası və Batabata gəzintisi təşkil edilmişdir.

***Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidməti***

### *İtmişdir*

Hacıyeva Kəmalə Bəhrəm qızının adına Babək rayon Kərimbəyli kəndində yerləşən torpaq sahəsinin MH-0077207 seriya nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

***

Babək rayon Kərimbəyli kəndində Hacıyeva Kəmalə Bəhrəm qızının adına olan torpaq sahəsinin 103013005728 nömrəli plan və ölçüsü itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov

Qəzet redaksiyanın kompüter ində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 663